**“Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti (Azərbaycan hakimiyyət orqanları) və Birləşmiş Krallığın Daxili İşlər Nazirliyinin Mühacirət və Milliyyət Direktorluğu (MMD) arasında anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır**:

2004-cü il sentyabrın 29-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti (Azərbaycan hakimiyyət orqanları) və Birləşmiş Krallığın Daxili İşlər Nazirliyinin Mühacirət və Milliyyət Direktorluğu (MMD) arasında Anlaşma Memorandumu" təsdiq edilsin.

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 dekabr 2004-cü il
800-IIQ

**Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti**
**(Azərbaycan hakimiyyət orqanları) və Birləşmiş Krallığın Daxili**
**İşlər Nazirliyinin Mühacirət və Milliyyət Direktorluğu (MMD) arasında**

## ANLAŞMA MEMORANDUMU

1. Bu Anlaşma Memorandumu ("AM") yuxarıda adlan qeyd olunan tərəflər arasında Birləşmiş Krallığa daxil olma və ya orada qalmağa ixtiyarı olmayan və Birləşmiş Krallıqdan Əfqanıstana qaytanlan Əfqanıstan vətəndaşlarının Bakı Hava Limanı vasitəsilə tranziti üçün razılaşmanın əsasım təşkil edəcəkdir.
2. Azərbaycan hakimiyyət orqanları yuxarıda qeyd olunan Əfqanıstan vətəndaşlarmı Əfqanıstana yerinə yetirilən sonrakı uçuşlara çatdırmaq məqsədilə qəbul etməyə və onların Bakı Hava limanında hərəkətinin 24 (iyirmidörd) saatdan artıq olmamaq şərtilə enmələri daxil olmaqla, tranzitini sürətləndirməyə razıdır.
3. Bu "AM"nun şərtləri daxilində geri qaytanlan Əfqanıstan vətəndaşları ya cədvəlləşdirilmiş hava xidmətləri vasitəsilə, ya da xüsusi olaraq bu məqsəd üçün ayrılmış çarter üsulu ilə Bakıya gələcəklər.
4. "MMD" 7 (yeddi) gündən gec olmayaraq, Azərbaycan hakimiyyət orqanlarına bu "AM"nun şərtləri daxilində Birləşmiş Krallıqdan çıxarılmalı olan Əfqanıstan vətəndaşlarına dair ətraflı məlumat verəcəkdir.
5. Bu "AM"nun şərtləri daxilində Birləşmiş Krallıqdan çıxarılmalı olan Əfqanıstan vətəndaşlarına müvafiq səyahət sənədi veriləcək. Bu ya əfqan pasportu ya da "MMD" tərəfindən verilmiş müvafiq səyahət sənədi, daha doğrusu, Əfqanıstan vətəndaşlarının Əfqanıstana qaytarılmalarına yardım məqsədilə tərtib olunmuş Avropa Birliyinin məktubu olacaqdır.
6. Bu "AM"nun şərtləri daxilində Birləşmiş Krallıqdan çıxarılmalı olan Əfqanıstan vətəndaşları Əfqanıstan hakimiyyət orqanları tərəfindən qəbul edilməzsə və onları Azərbaycan Respublikasının ərazisinə qaytararsa, "MMD" ən çoxu 48 (qırx səkkiz) saat ərzində qaytarılmış şəxslərin Birləşmiş Krallığa göndərilməsini öz öhdəsinə götürür.
7. Hər bir qayıdan şəxsin bütün səyahət xərcini "MMD" ödəyəcəkdir.
8. "MMD" Azərbaycan Respublikası tərəfindən bu "AM"nun şərtləri daxilində öhdəliklərin yerinə yetirilməsi zamanı çəkilmiş münasib inzibati xərcləri ödəyəcəkdir.
9. Bu Anlaşma Memorandumu Bakı şəhərində 2004-cü il 29 sentyabr tarixində hər biri Azərbaycan və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi general-leytenant** | **Birləşmiş Krallığın Daxili İşlər Nazirliyinin Mühacirət və Milliyyət Direktorluğunun Baş Direktoru adından Fövqəladə və Səlahiyyətli Səfir** |
| **Elçin QULİYEV** | **Dr.Lori BRİSTOU** |